No: 03 2025
https://doi.org/10.64400/ea25-3-26
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# SOSİAL SİYASƏTİN İNKİŞAFINDA YENİ BİR SAHƏ: KÖNÜLLÜLÜK

**Aynur ƏLİYEVA**

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
*Yazışılan müəllif:* eliaynur2@gmail.com, Tel: (+994) 602211809

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 16.09.2025
*Nəşr edilmə tarixi:* 28.10.2025

**AÇAR SÖZLƏRI:**
könüllülük anlayışı, könüllülük xidməti, sosial həmrəylik, sosial-iqtisadi inkişaf, sosial siyasət, könüllülüyün təşviqi.

**XÜLASƏ**

Könüllülük xidməti sosial tərəqqinin mühüm simvolu, əsas sosial dəyərlərinin həyata keçirilməsinin mühüm tərkib hissəsi olduğu üçün müvafiq mövzu müasir dövrdə aktual əhəmiyyət kəsb edir. Məqalədə könüllü xidmətin mühüm xüsusiyyətləri, sosial siyasətin inkişafında könüllü xidmətin rolu kimi məsələlər aydınlaşdırılmışdır. Bu məqalənin əsas məqsədi könüllülüyün sosial siyasətin inkişafında rolunu araşdırmaq, onun cəmiyyətə və sosial rifaha təsirini dəyərləndirməkdir. Könüllülüyün mühüm xüsusiyyətləri, könüllük metodları, könüllülüyün sosial-iqtisadi inkişafa töhfəsi barədə məlumat verməк və sosial siyasətin inkişafında könüllülüyün oynadığı rolu izah etmək məqalənin əsas vəzifələrindəndir.
Məqalədə analitik, müqayisəli, sosioloji, tarixi və normativ-hüquqi metodlardan istifadə olunub. Analitik metod vasitəsilə könüllülüyün sosial siyasətə təsiri təhlil olunub, müqayisəli metodla müxtəlif təşkilatlarda könüllülük fəaliyyəti müqayisə edilib, sosioloji metod vasitəsilə könüllülüyün cəmiyyətə təsiri və sosial rifahla əlaqəsi araşdırılıb, tarixi metodla könüllülüyün inkişafı və tarixi nəzərdən keçirilib, normativ-hüquqi metod vasitəsilə “Könüllü fəaliyyət haqqında” qanun və digər hüquqi sənədlər təhlil edilib.
Sosial problemlərin həlli üçün müvafiq təşkilat və müəssisələr könüllülərlə əməkdaşlıq etməli, sosial sahə üzrə mühüm işlərin görülməsində könüllülərin fəal dəstəyindən istfadə etməlidirlər. Könüllülər sektoru sosial innovasiyalar və dəyişikliklər üçün katalizator rolunu oynamalı, sosial məsələləri yeni üsullarla aktiv və effektiv şəkildə həll etməli, birgə idarəçiliyin subyekti kimi müxtəlif sektorlarla əməkdaşlıq və həmrəylik içində işləməyi bacarmalıdır.

## GİRİŞ

Könüllülük xidməti insanlar arasında, insanlarla cəmiyyət arasında, insanlarla təbiət arasında harmonik birgə yaşayışı təşviq edir və cəmiyyətin hərtərəfli, əlaqələndirilmiş və davamlı inkişafına kömək edir. Könüllülük həm də könüllünün bacarıqlarının artırılmasına çox kömək edir. Texniki bacarıqlardan tutmuş danışıqlar və böhranların idarə edilməsi bacarıqlarına qədər, bunlar könüllülərin könüllü fəaliyyətləri yerinə yetirməklə əldə edəcəyi bəzi qabiliyyətlərdir. Könüllülük həm də könüllünün bacarıqlarının artırılmasına çox kömək edir. Texniki bacarıqlardan tutmuş danışıqlar və böhranların idarə edilməsi bacarıqlarına qədər, bunlar könüllülərin könüllü fəaliyyətləri yerinə yetirməklə əldə edəcəyi bəzi qabiliyyətlərdir.

Könüllülük xidməti sosial tərəqqinin mühüm simvollarından biridir. Müasir dövrdə könüllülük xidmətinin əhatə dairəsi daim genişlənir və xidmətlərin məzmunu getdikcə zənginləşir. Könüllülər könüllü xidmətlərdə iştirak etməklə öz bacarıqlarını təkmilləşdirir və eyni zamanda sosial tərəqqiyə kömək edirlər. Könüllülük xidməti sosial münaqişələrin aradan qaldırılmasına və sosial problemlərin həllinə yönəldimişdir.

Könüllü hərəkətlər və insanların könüllü fəaliyyətlərdə iştirak səviyyəsi ölkənin sosial vəziyyəti ilə mütənasibdir. Təbiidir ki, iqtisadi təzyiqlər artdıqca xeyriyyəçilikdə könüllü fəaliyyətlər də artır. Sosial zərərlərin azaldılmasında könüllülər də fəal rol oynayırlar. Ümumiyyətlə, könüllülük sosial problemlərin həllinə töhfə verən və milli inkişafın yeni hərəkətverici qüvvəsinə və gələcək strategiyasına çevriləcək təsirli fəaliyyətdir.

**ƏSAS MƏTN**

Bu məqalədə biz könüllülük anlayışını, könüllülüyün müxtəlif formalarını araşdıracaq və könüllülüyün balanslaşdırılmış cəmiyyətin yaradılmasındakı rolunu, könüllülük xidmətlərinin sosial rifaha verdiyi töhfələri nəzərdən keçirəcəyik. Könüllülük fenomeni ölkəmizin sosial siyasi gündəmində yeni bir sahə olduğu üçün bu fəaliyyət növünü inkişaf etdirmək olduqca zəruri bir addımdır.

Müvafiq sahənin inkişafı üçün könüllülük xidməti ilə bağlı tədqiqatın dairəsini genişləndirmək, könüllü xidmətin ən yaxşı təcrübə modellərini araşdırmaq, peşəkar könüllü xidmət istedadlarını inkişaf etdirmək və könüllülərin peşəkarlıq səviyyəsini yaxşılaşdırmaq lazımdır.

**Könüllülüyün mühüm xüsusiyyətləri**

Könüllülük inkişaf proseslərinə birbaşa töhfə verən və öz növbəsində bu proseslərdən təsirlənən sosial hadisədir. Könüllülük müxtəlif cəmiyyət və icmalarda fərqli mənalara malikdir, bu fenomen inkişaf səviyyəsindən və sosial seqmentlərdən asılı olaraq müxtəlif mövqeylərdən şərh olunur. “Könüllülük cəmiyyəti dəyişdirməyə, vətəndaş cəmiyyətinin formalaşmasına mühüm töhfə verməyə şərait yaradan bir hərəkat, görülən bütün işlərin timsalında cəmiyyəti irəli aparmağı hədəfləmiş bir fəaliyyət sahəsidir” [1, s.52]. Ölkəmizdə tez-tez rastlaşdığımız dini bayramlarda ənənəvi olaraq verilən yardımlar, ianələr və qan bağışlamaları bəzən könüllülük fəaliyyəti kimi də təyin oluna bilər. Həmçinin həmkarlar ittifaqları və onların üzvləri və ya müxtəlif dövlət qurumları tərəfindən görülən işlər də könüllü iş sayıla bilər. Bəzi cəmiyyətlərdə isə könüllülük şəxsi və ya maliyyə mənfəəti nəzərə alınmadan görülən iş deməkdir.

Təbii ki, bütün bu təriflər müxtəlif cəmiyyətlərin sosial-iqtisadi və mədəni təcrübələrinin təsiri altında ortaya çıxıb. Könüllük anlayışına yanaşmalar və hətta bu anlayışın özü ölkəmizdə də müxtəlifdir. Bu yazıda isə biz cəmiyyətin əksəriyyəti tərəfindən paylaşılan könüllülük tərifinə diqqət yetirməyə çalışacağıq.

İlk olaraq qeyd edə bilərik ki, könüllülük xeyriyyəçilik və yardım anlayışlarını özündə ehtiva edən bir fəaliyyət növüdür. Könüllülük başqa bir şəxsə və ya bir səbəbə xidmət anlayışıdır. Bu anlayış, fərdlərin və qurumların insanlara, sosial problemlərə və onlarla birbaşa əlaqəsi olmayan vəziyyətlərə qarşılıq gözləmədən xidmət göstərdiyi vəziyyəti vurğulayır. Başqa sözlə desək, könüllülük heç bir maddi maraq olmadan həyata keçirilən hərəkətlərin məcmusudur. “Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi faydaya əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqaməti hesab olunur” [2, s.10].

İkinci olaraq isə könüllülük insanın heç bir kənar təzyiq olmadan tamamilə öz istəyi ilə yerinə yetirdiyi xidmətdir. Ancaq bu anlayış özü ilə çoxlu ziddiyyətlər və fərqli qavrayışlar da gətirə bilər. Məsələn, uşağın məktəb işlərində könüllü olaraq fəaliyyət göstərməsi azad seçimdir, yoxsa məktəb rəhbərliyinin gözləntilərinə uyğun fəaliyyətin nəticəsidir? Siyasi məqsədlər və ya dini birlik üçün könüllü əsaslı xidmətlər haqqında nə demək olar? Bu xidmətləri insanın öz iradəsi ilə yerinə yetirdiyi işlər kimi müəyyən etmək olarmı? Bu suala cavab vermək üçün isə insanların könüllü olmağa nəyin motivasiya etdiyini anlamaq lazımdır.

Könüllülüyün digər əsas elementi isə kiminsə bu xidmətdən faydalana bilməsidir. Başqa sözlə, könüllülük tərəfindən göstərilən xidmət könüllünün bilavasitə tanıdığı birinin, məsələn, ailə üzvünün və ya tanımadığı kənar şəxslərin “rifahına” xidmət etməli və ya ehtiyacını ödəməlidir. Yəni könüllülükdən faydalanan hədəf auditoriyası olmalıdır. Bu auditoriyaya könüllülərin bilavasitə tanımadığı kənd yerlərində yaşayan qadınlar, yoxsul kəndlilər və ya gənc qızlar, həmçinin icma və ya ətraf mühit də daxil ola bilər. “Sosial əhəmiyyətli bir məsələ ilə məşğul olan gənc könülü öz

gücünü və imkanlarını sınayır, ünsiyyət qurmaq bacarığına yiyələnir, başqasını anlamaq qabiliyyətini inkişaf etdirir, özünü dərk etməyə çalışır" [3, s.347]

Son olaraq, könüllülük institusional və mütəşəkkil struktura malik olmalıdır. İstər birbaşa fərdlər arasında, istərsə də institusional (dövlət və özəl sektor) səviyyəsində və daha formal formada olan könüllülük fəaliyyəti davamlı təşkilati və yuxarıda qeyd olunan bütün digər keyfiyyətləri özündə birləşdirən iş növü kimi müəyyən edilməlidir. Qısamüddətli və təsadüfi yardım və xidmətlərin nə dərəcədə könüllülük hesab oluna biləcəyi məsələsi bu baxımdan da vacibdir.

**Könüllük işinin metodları**

Könüllülük işinin müxtəlif metodları olsa da, bu metodlar cəmiyyətdən aslı olaraq dəyişir. Bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da könüllülük daha çox qonşulara, ailələrə və yoxsullara kömək etmək, dini bayramlarda və digər xüsusi günlərdə yoxsullara ərzaq yardımı göstərmək kimi cəmiyyətin köklü ortaq dəyərlərinə xidmət edən fəaliyyətlər kimi görülür, fondların təklif etdiyi təqaüdlər və təhsil yardımları, bəzi hökümət və qeyri-hökumət təşkilatları tərəfindən verilən yardımlar ilə eyniləşdirilir. Ölkəmizdə 9 iyun 2009-cu ildə qəbul edilən "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının qanununun üçüncü maddəsində könüllü fəaliyyətin istiqamətləri öz əksini tapmışdır [4, 2025].

Təəssüflər olsun ki, müəyyən inkişaflara baxmayaraq, hələ də bir çox ölkələrdə könüllülük kifayət qədər dar kontekstdə başa düşülür. Bu təsəvvürü dəyişmək üçün könüllülük xidmətləri göstərən qeyri-hökumət təşkilatları və bəzi dövlət qurumları ilə daha sıx əməkdaşlıq etmək faydalı olardı. Təbii ki, ölkəmizdə də bir çox dövlət orqanları, eyni zamanda bir çox özəl sektor təşkilatları oxşar və fərqli könüllü proqramlar həyata keçirir, könüllülük fəaliyyəti ilə bağlı bir çox önəmli tədbirlərin təşkilatçısı və ya tərəfdarı qismində çıxış edirlər. Bununla paralel olaraq isə sözügedən dövlət orqanları və özəl sektor təşkilatları öz işçilərini bir tərəfdən könüllülük fəaliyyəti ilə məşğul olmağa təşviq edərkən, digər tərəfdən isə özlərinin də institusional səviyyədə inkişafa və sosial ehtiyaclara töhfə vermək üçün yeni-yeni daxili strukturlar hazırlamağa çalışdıqlarını bildirirlər. Bununla da ölkəmizdə fəaliyyət göstərən həm dövlət orqanlarının, həm qeyri-hökumət təşkilatlarının (QHT), həm də özəl sektorun könüllü təşkilatları BMT və ictimai qurumlar tərəfindən həyata keçirilən layihələrdə fəal iştirak etməyə çalışır. "QHT-lərin böyüməsi və genişlənməsi zamanı müxtəlif idarəetmə problemləri yaranır. Bu problemlər QHT-lərin daha çox həvəskar şəkildə idarə olunmasından irəli gəlir" [5, s. 5].

Ölkəmizin bütün bölgələrində həyata keçirilən bu proqramların əksəriyyəti qadınların və gənclərin yerli iqtisadiyyat və sosial fəaliyyətlərdə iştirakını dəstəkləyir, həmçinin onlar üçün təhsil və iş imkanlarının yaradılmasını, qısa və uzunmüddətli layihələrdə fəaliyyətini də dəstəkləyir. Digər tərəfdən, son illərdə dövlət qurumlarının da könüllülük fəaliyyətində maraqlı tərəfə çevrilməsi nümunələrinin şahidi oluruq. Bu nümunələrdən ən qabarıq olanı kimi DOST Agentliyinin "Könüllü DOST" proqramını və həmin proqramın altproqramı olan "DigiDOST" proqramı, Azərbaycan Uşaqları "İctimai Birliyi- Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzi"nin könüllülük proqramları, Dövlət İmtahan Mərkəzinin könüllülər layihələri, Təhsil Tələbə Krediti Fondunun könüllü proqramları, Azərbaycan Respublikasının Medianın İnkişaf Agentliyinin "MEDİA könüllüləri" proqramı, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının "Teatr Könüllüləri" layihəsi və s. bunun kimi bir çox könüllülük proqramları və layihələri önə çıxır. Ümumiyyətlə, yuxarıda sadaladıqlarımız kimi bir çox oxşar və fərqli layihələrin sayı artmaqdadır. Nəticədə isə istər dövlət, istərsə də özəl sektor əməkdaşlığı könüllülük sahəsində yeni iş metodu kimi qəbul olunmağa davam edir.

Son zamanlarda isə insanların bütün sahələrdə, xüsusilə də onlara aid olan qərarlarda və idarəetmədə könüllü şəkildə iştirakı könüllülük fəaliyyətinin yeni bir növü kimi başa düşülə bilər. "Ənənəvi olaraq, könüllülərin idarə edilməsi üzrə tədqiqatlar haqqında biliklər klassik insan resursları biliklərinin könüllülük sahəsinə ötürülməsi ilə formalaşmışdır" [6, s. 392]. İnsanlara aid qərarlarda və idarəetmədə itirak onlara söz sahibi olmaqla daha demokratik və şəffaf bir cəmiyyətin yaranmasına gətirib çıxarır. Bir sözlə, vətəndaşları onların həyatlarına təsir edən qərarlar və siyasət

haqqında məlumatlandırmaq ən sadə iştirak təcrübələrindən biridir. Bununla belə, davamlı iştirakın təmin edilməsi ilə həm sosial mühitin yaradılmasına, həm idarəetmənin bütün səviyyələrində iştiraka, həm sistemin hesabatlılığına, həm də vətəndaşların qərar qəbuletmə təcrübəsinə yiyələnməsinə şərait yaradacaq. Ancaq təəssüflər olsun ki, bu gün hələ də insanların bütün sahələrdə könüllü olaraq istirakı konkret metoda çevrilməmiş bir anlayış kimi qəbul edilir. Bu məqsədlə konsepsiyanın daha yaxşı başa düşülməsi daha mütərəqqi cəmiyyətin ölçüsü kimi görülsə də, təbii ki, bu metodun tətbiqində ölkədən ölkəyə fərqliliklər də çoxdur. Məlumdur ki, bəzi hallarda kütlənin deyil, daha əlverişli və üstün siyasi baxışları olan qrupların səsi eşidilir. Buna görə də, iştirak anlayışını daha yaxşı başa düşmək və onun tətbiqinə dair konkret nümunələri bilmək insanlara könüllülük və onun tərifini daha yaxşı başa düşməyə imkan verəcəkdir.

Digər tərəfdən, vəkillik ölkəmizdə son illərdə gündəmə gələn yeni bir könüllü iş növüdür. Vəkillik cəmiyyəti narahat edən hər hansı problem və ya məsələnin biliyə əsaslanan həlli istiqamətlərində istifadə olunan birgə fəaliyyət metodu kimi müəyyən edilə bilər. Bu səylərə ictimaiyyətin məlumatlılığının artırılması, tədqiqatların, əyani və yazılı materialların hazırlanması, kampaniyaların təşkili, problem haqqında məlumatların yayılması, müxtəlif platformalarda ictimaiyyət və cəmiyyətlə məlumat mübadiləsi kimi müxtəlif üsullar daxil ola bilər. Nümunə kimi ölkəmizdə olduğu qədər, digər ölkələrdə də ətraf mühitin və ekoloji həyatın qorunması üçün, qadın hüquqlarını ön plana çıxaran vəkillik hərəkatlarının aparılması üçün, bəzi icmalarda dini və ya ənənəvi zəmində qadınların daşqalaq edilməsinin, qızların sünnət edilməsinin və ya qızların məktəbə getməsinin qarşısının alınması üçün könüllü qrupların rəhbərlik etdiyi yerli və beynəlxalq təbliğat kampaniyaları sayəsində bir çox pozuntulara son qoyuldu. Bu yaxınlarda bir çox ölkələrdə həyata keçirilən populyar hərəkatları könüllü təşkilatlar və əhalinin geniş təbəqələri tərəfindən dəstəklənən "hərtərəfli vəkillik" hərəkatları kimi xarakterizə etmək olar.

**Könüllülüyün sosial-iqtisadi inkişafa töhfəsi**

Bəs niyə dövlət könüllüləri təşviq etməlidir? İlk olaraq bunu qeyd etmək lazımdır ki, könüllülük çərçivəsində həyata keçirilən fəaliyyətlərin bir çoxu dövlət tərəfindən həyata keçirildikdə çox daha baha başa gələ bilər. Düzdür, könüllü işin dəyəri maddi olaraq daha aşağıdır, amma onun sosial, iqtisadi və cəmiyyətin inkişafına töhfəsi bütün bunlara baxmayaraq çox yüksəkdir. Məsələn, son illərdə bəzi dövlət orqanları, özəl sektor, QHT və könüllülərin gender bərabərliyi, qadın hüquqları və ətraf mühitin mühafizəsi ilə bağlı gördükləri işlərin əksəriyyəti əslində dövlətin vəzifələrinə aid olan, lakin dövlət tərəfindən həyata keçirilsə çox baha başa gələn işlərdir. Bu kontekstdə könüllülük fəaliyyəti dövlət büdcəsindəki xərclərinin azadılmasına da gətirib çıxarır. Çünki, "könüllülük fərdlərin heç bir maddi qazanc gözləmədən, öz iradələri ilə ictimai faydaya xidmət edən fəaliyyətlərə dəstək verməsidir" [7, s.150]. Buna görə də könüllülük anlayışına maddi maraq, məcburiyyət və ya fərdin öz iradəsindən kənar təzyiq kimi elementlər daxil deyil.

Ümumiyyətlə, istifadə olunan üsullardan asılı olmayaraq, könüllülük vətəndaşlar arasında sosial həmrəyliyi gücləndirir, vətəndaşların ümumi sosial problemlərə diqqətini cəmləşdirməyə və problemlərin həlli bacarıqlarını inkişaf etdirməyə kömək edir, onların birlik içində fəaliyyət göstərməsinə töhfə verir. Bir sözlə, cəmiyyətin hər zaman ehtiyac duyduğu insan və sosial kapitalın sağlam inkişafında mühüm rol oynayan könüllülük, insanlar arasında möhkəm həmrəyliyin mövcud olduğu tarazlı və birləşdirici cəmiyyətin formalaşmasına da birbaşa təsir göstərə bilir. Könüllülük həm də sosial və insan mərkəzli inkişafa verdiyi dəyər baxımından diqqətlə izlənilməli olan sosial sahədir. "Könüllülük bir çox ictimai və siyasi hərəkatların, eləcə də milli və beynəlxalq vətəndaş cəmiyyəti təşkilatlarının onurğa sütununu təşkil edir və dövlət sektorunda əsas qüvvədir və özəl sektorda getdikcə daha çox əhəmiyyət kəsb edir" [8, s.34].

Son illərdə bütün dünyada və ölkəmizdə həyata keçirilən əhəmiyyətli könüllülük fəaliyyətləri sayəsində sosial inkişaf, təhsil, insan, qadın və uşaq hüquqları, qızların təhsil hüquqları və uşaq nikahları ilə bağlı məlumatlılığın artırılması yolu ilə düşüncə tərzinə də təsir göstərmişdir. "Bu gün könüllülər əvvəlki illərə nisbətən daha motivasiyalı, daha savadlı, daha bacarıqlı və peşəkardırlar və könüllülərin həyatın keyfiyyətinə verdiyi dəyər, cəmiyyətin yenidən qurulması və yenilənməsi ilə

yanaşı, könüllülərin idarə edilməsini xüsusi bir formaya çevirməkdə təsirli olmuşdur [9, s. 80]. Bu kontekstdə daha çox insan yönümlü və biliyə əsaslanan sosial və iqtisadi siyasətlərin inkişafı üçün könüllülüyün yaratdığı sosial və iqtisadi dəyərin ölçüsünü bilmək də zəruri olacaqdır. Bununla belə, könüllülük haqqında etibarlı məlumatların olmaması səbəbindən könüllülüyün iqtisadiyyata və bütövlükdə cəmiyyətə necə töhfə verdiyi barədə dəqiq məlumatımız yoxdur. Buna görə də, könüllü xidmətlər vasitəsilə edilən töhfələri və bunların təsirini ölçmək bu məqamda vacibdir.

Bir sözlə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və buna bənzər təşkilatların könüllü xidmətlər vasitəsilə edilən töhfələri qiymətləndirmək və mövcud vəziyyət haqqında ictimaiyyəti maarifləndirmək üçün müntəzəm statistika toplaması vacibdir. Statistik məlumatlara görə, "təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyirlər" [10]. Ümumiyyətlə, statistik məlumatlar vasitəsilə biz könüllülüyü cəmiyyətin boş təbəqəsi tərəfindən həyata keçirilən "əhəmiyyətsiz, müvəqqəti fəaliyyətlər" kimi qiymətləndirənlərin fikirlərini dəyişdirə bilərik.

Könüllülük haqqında yetərli statistik məlumatların olmaması bu fəaliyyət növü üçün əlverişli mühit yaradan tədbirləri görməyi gecikdirir. Nəhayət, vətəndaş cəmiyyətində və könüllülük fəaliyyətlərində iştirak sosial inklüzivliyi gücləndirir və imkansız insanlara öz icmalarında iştirak etməyə imkan verən "sosial kapitalı" təmin edir. Könüllülük xüsusilə yoxsul insanlar, qadınlar, kənd yerlərində yaşayan insanlar və cəmiyyətdə iştirak etməkdə çətinlik çəkən uşaqlar üçün bir həll yolu təmin etməklə daha bərabərlikçi və sosial iştirakçılığı dəstəkləyən sosial kapitalın yaradılmasına da töhfə verir.

**Könüllülük, sosial siyasət və dövlətin vəzifələri**

Könüllülük fəaliyyətinin institusional quruluşa malik olmadığı və hüquqi çatışmazlıqlarla üzləşdiyi ölkələrdə dövlətin könüllülüyü təşviq etmək üçün bir çox vəzifəsi var. Dövlətlər və hökumətlər cəmiyyətin sosial və mədəni quruluşuna uyğun gələn könüllülük və könüllü iş təcrübələrini təşviq edəcək yeni siyasətlərin həyata keçirilməsi üçün səy göstərməlidirlər. "Dövlət könüllülüyü təşviq edən və ya könüllülər üçün xüsusi dəstək və təlim məqsədilə siyasət və ya proqramlar qəbul edə bilər" [11, s.3]. Bunun üçün bütün dövlət və özəl sektor təşkilatlarının təcrübə və ideyalarından yararlanmaq lazımdır. "Müxtəlif dövlət orqanlarında könüllü olmuş gənclər bu şirkətlərdə təcrübəçi kimi fəaliyyətini davam etdirib və yaxud da özəl şir kətlərin elan etdik ləri təqaüd proqramlarından bəhrələniblər" [12, s.105]. İnklüziv proses çərçivəsində könüllülüyü təşviq etmək üçün ehtiyacların təhlili tələb olunur.

Dövlət könüllülüyü asanlaşdıran qaydaları və institusional strukturları nəzərdən keçirməlidir. Könüllülük üçün daha əlverişli mühit yaratmaq üçün nə edilməli olduğunu qısaca ümumiləşdirsək:

- Könüllülük üzrə milli strategiyanın yaradılması;
- Könüllülük və könüllü qruplar üçün dövlət büdcəsindən müntəzəm pay ayrılmaqla könüllülük fəaliyyətini əlaqələndirən təşkilatlara maliyyə imkanlarının təmin edilməsi;
- İnkişaf və sosial inteqrasiyada könüllülüyün əhəmiyyəti və könüllülük imkanlarının nə olduğu barədə cəmiyyətin məlumatlandırılması;
- Gənclərin və uşaqların könüllülük vasitəsilə onları və cəmiyyəti narahat edən məsələlərin inkişafında iştirak etmələrini təmin edən proqramlar təşviq edilməsi.

Könüllülük fəaliyyətinin davamlılığını təmin etmək üçün müntəzəm büdcənin təmin edilməsi vacibdir. Dövlət kütləvi informasiya vasitələri ilə nümunəvi könüllülük kampaniyalarının təşkilinə, ictimaiyyətin məlumatlandırılmasına, könüllülük vasitəsilə iştirak imkanlarının yaradılmasına üstünlük verməlidir.

Son illərdə qanunlarda edilən dəyişikliklər ölkəmizdə daha çox insan yönümlü sosial siyasətin inkişafına birbaşa töhfə verən könüllülük fəaliyyətinin artmasına imkan yaradıb. Könüllülük siyasətin prioritetidir və cəmiyyətin müxtəlif təbəqələrinə müraciət edəcək şəkildə inkişaf etdirilməli və ölkəmizdə bu fəaliyyət növü insan inkişafı üçün mühüm vasitə kimi qiymətləndirilməlidir.

## NƏTİCƏ

Könüllülük - ənənəvi əməkdaşlıq, müxtəlif sosial xidmətlərin göstərilməsi, eyni zamanda vətəndaşların iştirakı ilə həyata keçirilən bir çox fərqli fəaliyyət növlərini özündə ehtiva edir. Ümumilikdə isə bu fəaliyyət növünü belə ümumiləşdirə bilərik. Könüllülük - cəmiyyətin rifahı üçün insanlar tərəfindən azad iradə ilə edilən və heç bir maddi marağın əsas amil kimi göstərilmədiyi bir fəaliyyət növüdür. Ümumiyyətlə, könüllülük həqiqi bir vətəndaş olmağın ifadəsidir və içində olduğumuz insani münasibətlərinin tərkib hissəsidir. Həmrəylik, öhdəlik və iştirak kimi ideyalardan ilhamlanan könüllülük həm cəmiyyətin, həm də insanların rifahına töhfə verir.

Xarici mənbələrdə sosial siyasətin inkişafında könüllülüyün oynadığı rol C.Flud, P. E. Qardner, K.Yarrel, S.Varner, B. L. Nyuland, B.C.Qrin, S. T. Afşar, Y. A.Balaban, Ç. İ. İncə, A. Coşkun və s. alimlər tərəfindən tədqiq edilmişdir. Ölkəmizdə mövcud məsələnin bəzi nüanslarını N. Adilman (Adilov), H. Rəcəbli, E. Paşayev, P. Əmircanov, G. Namazova və başqaları araşdırmışdır. Müvafiq mövzunun ölkəmizdə geniş spektrdə araşdırılması, mövcud problemlərin nəzərə alınması və mütərəqqi nəzəriyyələrin praktikada tətbiqi sosial siyasətin tərəqqisində mühüm rol oyanyır.

Könüllülük xidməti ilə bağlı qanunların işlənib hazırlanması və təkmilləşdirilməsi, könüllülərin hüquq və mənafelərinin qorunması, könüllü xidmət fəaliyyətinin standartlaşdırılması, yaxşı hüquqi mühitin yaradılması, könüllü xidmətin nizamlı inkişafının təşviq edilməsi mövcud sahənin inkişafında mühüm rol oynaya bilər. Biz ümid edirik ki, gənclərin könüllü işlərə cəlb edilməsi, müxtəlif yollarla onların könüllü xidmətə həvəsləndirilməsi faktoru da sosial siyasətin inkişafına dəyərli töhfə verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Adilov N., Paşayev E. (2017). Könüllülük: uğur formulu. Adventa Co MMC, 246 s. ISBN: 978-9952-8308-7-3
2. Əmircanov P. (2020). Könüllülük hərəkatı Azərbaycanın davamlı inkişafına mühüm töhfələr verir. “Xalq qəzeti”, 23 may 2020-ci il, şənbə.
3. Rəcəbli H. (2022). Sosial sahələrin idarə edilməsi. Monoqrafiya. Bakı, Bakı mətbəəsi, 396 s.
4. “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının qanunu. (2025). https://e-qanun.az/framework/18159
5. Coşkun A. (2008), Sivil Toplum Kuruluşlarında Yönetim, Seçkin Yayıncılık, 1. Baskı, İstanbul. 214 s. ISBN: 9789750207914.
6. Warner, S., Newland, B. L., & Green, B. C. (2011). More than motivation: Reconside-ring volunteer management tools. Journal of Sport Management, 25(5), 391-407
7. Balaban Y.A., & İnce Ç. İ. (2015). Gençlerin Sivil Toplum Kuruluşlarındaki Gönüllülük Faaliyetleri ve Gönüllülük Algısı: Türkiye Eğitim Gönüllüleri Vakfı (TEGV) Örneği. Dokuz Eylül Üniversitesi İktisadi İdari Bilimler Fakültesi Dergisi, 30(2), 149-169.
8. Afşar S. T. (2019). Gönüllülük Olgusunu Sosyolojik Teorilerle Anlama Denemesi. Gençlik Araştırmaları Dergisi, 7 (Gençlik ve Gönüllülük), 27-58.
9. Flood, J., Gardner, P. E., Yarrell, K. (2005), “Managing Volunteers: Developing and Implementing an Effective Program”, Proceedings of the 2005 Northeastern Recreation Research Symposium, 80-89.
10. Namazova G. (2020). Könüllülük: tarixçəsi və strategiyası. 13 yanvar 2020, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi, https://scara.gov.az/az/xeberler/print/konulluluk-tarixcesi-ve-strategiyasi
11. TÜSEV Atölye (2015). Gönüllülük ve Yasal Mevzuat, https://www.tusev.org.tr/usrfiles/files/GonullulukAnalizBilgiNotu.12.02.15.pdf, Erişim tarihi: 20.05.2019
12. Adilman (Adilov) N. (2020). Könüllünün öz/əl kitabı. AZFCOD İnformasiya Agentliyi, 192 s. ISBN:978-9952-3739-8-1


## SUMMARY

## A NEW AREA IN THE DEVELOPMENT OF SOCIAL POLICY: VOLUNTEERING

**Aynur Aliyeva**

Since volunteer service is an important symbol of social progress and an important component of the implementation of basic social values, the relevant topic is of topical importance in the modern era. The article clarifies issues such as

important features of volunteer service and the role of volunteer service in the development of social policy. The main purpose of this article is to investigate the role of volunteering in the development of social policy, to assess its impact on society and social welfare. The main tasks of the article are to provide information about the important features of volunteering, volunteering methods, the contribution of volunteering to socio-economic development, and to explain the role of volunteering in the development of social policy. The article uses analytical, comparative, sociological, historical, and normative-legal methods. The impact of volunteering on social policy was analyzed using the analytical method, volunteering activities in various organizations were compared using the comparative method, the impact of volunteering on society and its relationship with social welfare were investigated using the sociological method, the development and history of volunteering were reviewed using the historical method, and the law "On Volunteering" and other legal documents were analyzed using the normative-legal method. To solve social problems, relevant organizations and enterprises should cooperate with volunteers and use the active support of volunteers in carrying out important work in the social sphere. The volunteer sector should play the role of a catalyst for social innovations and changes, actively and effectively solve social issues in new ways, and be able to work in cooperation and solidarity with various sectors as a subject of joint management.

**Keywords:** *concept of volunteering, volunteer service, social solidarity, socio-economic development, social policy, promotion of volunteering.*

## РЕЗЮМЕ

## НОВОЕ НАПРАВЛЕНИЕ В РАЗВИТИИ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ: ВОЛОНТЕРСТВО

**Айнур Алиева**

Поскольку волонтерское служение является важным символом общественного прогресса и важным компонентом реализации основных общественных ценностей, соответствующая тема имеет актуальное значение в современную эпоху. В статье освещаются такие вопросы, как важные характеристики волонтерской деятельности и роль волонтерской деятельности в развитии социальной политики. Основная цель данной статьи — рассмотреть роль волонтерства в развитии социальной политики и оценить его влияние на общество и социальное благосостояние. Основными целями статьи являются предоставление информации о важных характеристиках волонтерства, методах волонтерской деятельности, вкладе волонтерства в социально-экономическое развитие, а также разъяснение роли, которую волонтерство играет в развитии социальной политики.

В статье использованы аналитический, сравнительный, социологический, исторический и нормативно-правовой методы. С помощью аналитического метода проанализировано влияние волонтерства на социальную политику, с помощью сравнительного метода проведено сравнение волонтерской деятельности в различных организациях, с помощью социологического метода исследовано влияние волонтерства на общество и его связь с социальным благосостоянием, с помощью исторического метода рассмотрены развитие и история волонтерства, с помощью нормативно-правового метода проанализирован закон «О волонтерстве» и другие правовые документы.

Для решения социальных проблем соответствующие организации и предприятия должны сотрудничать с волонтерами и использовать активную поддержку волонтеров при выполнении важных работ в социальной сфере. Волонтерский сектор должен выступать в качестве катализатора социальных инноваций и изменений, активно и эффективно решать социальные проблемы новыми способами и иметь возможность работать в сотрудничестве и солидарности с различными секторами в качестве субъекта совместного управления.

**Ключевые слова:** *концепция волонтерства, волонтерская деятельность, социальная солидарность, социально-экономическое развитие, социальная политика, содействие волонтерству*